Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

İCBARİ TİBBİ SIĞORTA

TƏBİB Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

World Health Organization Azerbaijan




# PEYVƏNDLƏR ÖVLADIMIZI VƏ BİZİ HANSI XƏSTƏLİKLƏRDƏN QORUYUR?

Peyvəndin vaxtını gecikdirmə!
Hər doza vacibdir!



# PEYVƏNDLƏR ÖVLADIMIZI VƏ BİZİ HANSI XƏSTƏLİKLƏRDƏN QORUYUR?

ÖVLADIMIZI PEYVƏND ETDİRƏK, GƏLƏCƏYİMİZİ QORUYAQ!

Peyvəndlər hər il milyonlarla insanı xəstəlikdən, əlillikdən və ölümdən xilas edən ən sərfəli sağlamlıq tədbirlərindən biridir. İnsanları bir sıra ciddi xəstəliklərdən qoruyan effektiv və təhlükəsiz peyvəndlər mövcuddur, bir çox yeni peyvəndlər isə hazırlanmaqdadır.

Hər bir uşağın dünyada hələ də ciddi fəsadlar yaradan ağır xəstəliklərdən peyvəndlər vasitəsilə qorunmaq hüququ var. Məhz bu səbəblə, immunlaşdırmanın gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Övladınız hər gün ətraf mühitdəki minlərlə mikrob ilə təmasda olur. Mikroblar onun yediyi qidalarda, nəfəs aldığı havada və ağzına saldığı əşyalar və oyuncaqların üzərində yaşayır.

Uşaq doğulduqda onun immun (müdafiə) sistemi bir çox mikroblara müqavimət göstərə bilir, lakin onların arasında daha təhlükəli mikroblar var ki, uşaq onlara qarşı həssasdır. Peyvəndlər məhz belə mikroblara qarşı uşağın immun sistemini gücləndirmək üçün istifadə olunur.

# PROFİLAKTİK PEYVƏNDLƏR TƏQVİMİ

**Ölkəmizdə 11 ağır xəstəliyə qarşı peyvənd mövcuddur.**

Övladımızı profilaktik peyvəndlər təqviminə uyğun peyvənd etdirək və təhlükəli xəstəliklərdən qoruyaq!

| Peyvəndlər | Hansı xəstəliklərdən qoruyur? | Doğulduqdan sonra 12 saat ərzində | 2 aylığında | 3 aylığında | 4 aylığında | 6 aylığında | 12 aylığında | 18 aylığında | 6 yaşında |
|---|---|---|---|---|---|---|---|---|---|
| HepB | Hepatit B | ✓ | | | | | | | |
| BSJ* | Vərəm | ✓ | | | | | | | |
| GDT Hib HepB, İPV (HEKSAVAKSİN) | Göyüskürək, difteriya, tetanus, B tipli hemofil infeksiyası, Hepatit B və Poliomielit | | ✓ | ✓ | ✓ | | | | |
| Pk | Pnevmokok infeksiyası | | ✓ | | ✓ | ✓ | | | |
| OPV | Poliomielit | | | | | ✓ | | ✓ | |
| QPM | Qızılca, epidemik parotit və məxmərək | | | | | | ✓ | | ✓ |
| GDT | Göyöskürək, difteriya, tetanus | | | | | | | ✓ | |
| DT | Difteriya və tetanus | | | | | | | | ✓ |

** Uşağa doğulduqdan sonrakı 12 saat ərzində vərəm əleyhinə BSJ peyvəndi ilə vaksinasiyanın aparılması hər hansı səbəbdən mümkün olmadıqda, istisna hallarda yenidoğulmuşa doğum evini tərk edənə qədər peyvəndin vurulması vacibdir.*

Dünyada hər il uşaqların vaksinasiyası sayəsində 4 milyon ölümün qarşısı alınır.

Peyvəndlər hər gün müxtəlif mikroblarla təmasda olan övladlarımızın immun sistemini gücləndirməklə onları peyvəndlə qarşısı alınan xəstəliklərdən qoruyur.

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Qızılca nədir? | 04 |
| Epidemik parotit nədir? | 06 |
| Məxmərək nədir? | 08 |
| Difteriya nədir? | 10 |
| Göyöskürək nədir? | 12 |
| Tetanus nədir? | 14 |
| Poliomielit nədir? | 16 |
| Hepatit B nədir? | 18 |
| Hib infeksiyası nədir? | 20 |
| Pnevmokok infeksiyası nədir? | 22 |
| Vərəm nədir? | 24 |
| Peyvəndlərlə bağlı tez-tez verilən suallar | 26 |

# ÖVLADINIZI QIZILCA, EPİDEMİK PAROTİT VƏ MƏXMƏRƏKDƏN QORUYUN!

QPM peyvəndi **qızılca, epidemik parotit və məxmərəkdən** qoruyur.

Övladınızın bu üç xəstəlikdən effektiv müdafiəsi üçün **2 doza QPM peyvəndi** vurdurmaq tövsiyə olunur.

| 1-ci doza | 2-ci doza |
| --- | --- |
| 12 aylığında | 6 yaşında |

# Qızılca nədir?

Qızılca virusun tərəfindən törədilən kəskin yoluxucu xəstəlikdir. Qızılca xəstəliyi hər yaşda müşahidə oluna bilər.

## Qızılca təhlükəlidirmi?

Hər yaşda insan üçün təhlükəli olan qızılca körpələr və uşaqlar üçün xüsusilə təhlükəlidir.

## Qızılca hansı ağırlaşmalara səbəb ola bilər?

- ✓ **Pnevmoniya** (ciddi ağciyər xəstəliyi)
- ✓ **Beyin zədələnməsi**
- ✓ **Karlıq**
- ✓ **Ölüm**

Qızılcaya yoluxan xəstələr həkim nəzarəti altında adətən ev şəraitində müalicə olunur. Ağırlaşmalar baş verdikdə, xəstələr xəstəxanaya yerləşdirilir. **Qızılcaya yoluxan hər 5 nəfərdən biri adətən xəstəxanaya yerləşdirilir.**

## Qızılcanın əlamətləri hansılardır?

- ✓ **Öskürək, burun axması** (zökəm)**, gözlərin qızarması**
- ✓ **Kiçik ölçüdə qırmızı səpgilər** (adətən baş nahiyəsindən başlayır və bütün bədənə yayılır)
- ✓ **Qızdırma**
- ✓ **İshal**
- ✓ **Qulağın iltihabı**



## Qızılca necə yayılır?

- Qızılca yüksək dərəcədə yoluxucudur. Qızılca xəstəsi ilə təmasda olan hər 100 insandan 95-96-sı xəstələnir.
- Qızılca xəstəliyi hava-damcı yolu ilə öskürmə və asqırma zamanı ötürülür.
- Qızılca törədicisi havada və səthlərdə 2 saatadək aktiv qala bilər.

# Epidemik parotit nədir?

Epidemik parotit virus tərəfindən törədilən və yanaqların, qulaqətrafı nahiyənin və çənənin şişməsi ilə özünü büruzə verən yoluxucu xəstəlikdir. Şişkinliyə səbəb tüpürcək vəzilərinin iltihabıdır.

## Epidemik parotit təhlükəlidirmi?

Bəli, parotitə qarşı peyvənd ixtira edilməzdən əvvəl epidemik parotit beynin və onurğa beyninin örtüyünün iltihabı (meningit) və karlığın ən çox yayılmış səbəblərindən biri idi. Eyni zamanda, bu xəstəlik ensefalitə (baş beyinin iltihabı) və digər uzunmüddətli sağlamlıq problemlərinə səbəb ola bilər.

## Epidemik parotit hansı ağırlaşmalara səbəb ola bilər?

- ✓ **Beynin və onurğa beyninin örtüyünün iltihabı** (meningit)
- ✓ **Karlıq** (müvəqqəti və ya daimi)
- ✓ **Ensefalit** (baş beyinin iltihabı)
- ✓ **Yetkinlik yaşına çatmış oğlanlarda orxit** (xayaların iltihabı) **və sonsuzluq**
- ✓ **Yetkinlik yaşına çatmış qızlarda ooforit** (yumurtalıqların iltihabı) **və ya mastit** (süd vəzisinin iltihabı)

Əksər uşaqlarda parotit olduqca yüngül keçir.

## Epidemik parotitin əlamətləri hansılardır?

Epidemik parotitə yoluxan uşaqlarda adətən təxminən 7-10 gün ərzində aşağıdakı əlamətlər müşahidə olunur:

- ✓ **Qızdırma**
- ✓ **Qulaqətrafı nahiyə və ya çənənin altında yaranan şişkinlik**
- ✓ **Baş ağrısı və əzələ ağrıları**
- ✓ **Yorğunluq və iştahsızlıq**

Bəzi uşaqlarda xəstəlik əlamətsiz də keçə bilər.



## Epidemik parotit necə yayılır?

Epidemik parotit xəstənin tüpürcəyi vasitəsilə aşağıdakı yollarla yayılır:

- Öskürərkən, asqırarkən, danışarkən və öpüşərkən
- Xəstənin tüpürcəyi ilə təmasda olan əşyaları istifadə edərkən (su şüşəsi, stəkan və s.)
- Yuyulmamış əllərlə əşyalara və ya səthlərə toxunarkən.

Yoluxmuş şəxs yanaqlarda və qulaqətrafı nahiyədə şişkinlik əlaməti əmələ gəlməzdən 2 gün əvvəl və 5 gün sonraya qədər xəstəliyi yaya bilər. Bu səbəbdən parotit olan şəxs bu müddət ərzində başqaları ilə təmasını məhdudlaşdırmalıdır.

# Məxmərək nədir?

Məxmərək (“alman qızılcası”) virus tərəfindən törədilən yoluxucu xəstəlikdir.

## Məxmərək təhlükəlidirmi?

Məxmərək adətən uşaqlarda yüngül formada keçir. Fəsadlara daha çox yetkin şəxslərdə rast gəlinir.

Nadir hallarda məxmərək beyin zədələnməsi və qanaxmalar da daxil olmaqla, ciddi fəsadlara  səbəb ola bilər.

## Məxmərək hansı ağırlaşmalara səbəb ola bilər?

Məxmərək hansı ağırlaşmalara səbəb ola bilər?

- ✓ **Beyin zədələnməsi**
- ✓ **Qanaxmalar**

Məxmərək infeksiyasının ən ciddi ağırlaşmaları hamilə qadınların yoluxması zamanı baş verir. Peyvənd olunmamış hamilə qadının məxmərək virusuna yoluxması düşük və ya ölü doğuşla nəticələnə bilər. Eyni zamanda, o, virusu bətnində olan körpəsinə ötürə bilər ki, bu da ciddi anadangəlmə qüsurlara səbəb ola bilər:

- ✓ **ürək problemləri**
- ✓ **eşitmə və görmə problemləri**
- ✓ **əqli qüsur**
- ✓ **qaraciyər və ya dalağın zədələnməsi**

**Qadın məxmərəyə hamiləliyin erkən dövründə, xüsusilə də ilk 3 ayında yoluxarsa, körpəsində ciddi anadangəlmə qüsurlara daha çox rast gəlinir.**

## Məxmərəyin əlamətləri hansılardır?

Məxmərək uşaqlarda adətən 2-3 gün davam edən və yüngül formada keçən aşağıdakı əlamətlərə səbəb olur:

- ✓ **Qırmızı səpgilər** (ilk növbədə üz nahiyəsində görünür, sonra bədənin qalan hissəsinə yayılır);
- ✓ **Yüngül dərəcədə qızdırma**
- ✓ **Limfa vəzilərinin böyüməsi**
- ✓ **Öskürək,  burun axması** (zökəm), **gözlərin qızarması və ya şişməsi;**
- ✓ **Oynaq ağrıları** (xüsusilə gənc qadınlarda)

Məxmərəyə yoluxmuş insanların təxminən yarısında isə əlamətlər özünü büruzə vermir.



## Məxmərək necə yayılır?

- Məxmərəyə yoluxmuş şəxs virusu öskürdükdə və ya asqırdıqda və yuyulmamış əlləri ilə əşyalara və ya səthlərə toxunduqda yaya bilər.
- Xəstəliyə yoluxmuş şəxslər səpgi yaranan zaman daha çox yoluxuculuğa malik olurlar. Yoluxdurma səpginin yaranmasından 7 gün əvvəl və 7 gün sonrakı müddətdə də baş verə bilir.

# ÖVLADINIZI DİFTERİYA, GÖYÖSKÜRƏK VƏ TETANUSDAN QORUYUN!

Övladınızın bu xəstəliklərdən effektiv müdafiəsi üçün aşağıdakı sayda peyvənd dozaları vurdurmaq tövsiyə olunur:

**Difteriya, tetanus və göyöskürəkdən qorunmaq üçün Heksavaksin peyvəndi, GDT və DT peyvəndləri tətbiq olunur.**

| 1-ci doza | 2-ci doza | 3-cü doza | 1-ci BUSTER DOZA | 2-ci BUSTER DOZA |
|---|---|---|---|---|
| Heksavaksin 2 aylığında | Heksavaksin 3 aylığında | Heksavaksin 4 aylığında | GDT 18 aylığında | DT 6 yaşında |

# Difteriya nədir?

Difteriya toksin (zəhərli maddələr) əmələ gətirən bakteriyalar tərəfindən törədilən və ağır xəstəliyə səbəb olan ciddi infeksiyadır.

## Difteriya təhlükəlidirmi?

Hər yaşda insan üçün təhlükəli olan difteriya körpələr və uşaqlar üçün xüsusilə təhlükəlidir.

## Difteriya hansı ağırlaşmalara səbəb ola bilər?

- ✓ Tənəffüs yollarının tutulması
- ✓ Ürək ritminin pozulması və ürək çatışmazlığı
- ✓ İflic
- ✓ Ölüm

**Difteriyaya yoluxan 5 yaş aşağı hər 5 uşaqdan biri dünyasını dəyişir.**
**Difteriyaya yoluxan hər 10 nəfərdən biri dünyasını dəyişir.**

## Difteriyanın əlamətləri hansılardır?

- ✓ **İntoksikasiya** (qızdırma, yorğunluq, ümumi zəiflik)
- ✓ **Boğaz ağrısı, səsli quru öskürək, burun axması** (zökəm)
- ✓ **Badamcıqların şişməsi və ağımtıl və ya boz rəngli ərplə örtülməsi: nəfəsalmada və udmada çətinlik.**



## Difteriya necə yayılır?

- Difteriya xəstəliyi hava-damcı yolu ilə öskürmə və asqırma zamanı ötürülür.
- Xəstələnmiş şəxs müalicə almadığı təqdirdə, təxminən 2 həftə ərzində xəstəliyi hava-damcı yolu ilə digərlərinə yaya bilir.

# Göyöskürək nədir?

Göyöskürək bakteriya tərəfindən törədilən, şiddətli öskürək tutmalarına səbəb olan və əsasən tənəffüs yollarını zədələyən xəstəlikdir.

## Göyöskürək təhlükəlidirmi?

Bəli, xüsusilə körpələr və azyaşlı uşaqlar üçün çox təhlükəli xəstəlikdir.

## Göyöskürək hansı ağırlaşmalara səbəb ola bilər?

Göyöskürəyə yoluxmuş 1 yaşından kiçik körpələrdə aşağıdakılar müşahidə oluna bilər:

- ✓ **Pnevmoniya** (ciddi ağciyər xəstəliyi)
- ✓ **Qıcolmalar**
- ✓ **Beyin zədələnməsi**
- ✓ **Ölüm**

## Göyöskürəyin əlamətləri hansılardır?

Xəstəlik aşağıdakı simptomlarla başlayır:

- ✓ **Burun axması** (zökəm)
- ✓ **Yüngül öskürək**
- ✓ **Körpənin nəfəsalmasında fasilələr**

Sonra aşağıdakı daha ciddi problemlər aşkar oluna bilər:

- ✓ **Şiddətli və fasiləsiz quru öskürək** (əsasən gecələr)
- ✓ **Öskürək tutmasından sonra nəfəs darlığı yaranır və uşaq nəfəs alarkən uğultulu yüksək tembrli fitverici səs çıxarır. Körpələrdə isə kəskin təngnəfəslik və nəfəsalmanın dayanması baş verə bilər.**
- ✓ **Nəfəsalmada, qida və maye qəbulunda çətinlik və yuxunun pozulması**
- ✓ **Öskürək tutmasından sonra oksigen çatışmazlığına görə uşağın göyərməsi**
- ✓ **Öskürəkdən sonra qusma**

Öskürək tutması 10 həftə və ya daha artıq davam edə bilər və bəzən uşaq növbəti dəfə tənəffüs yolu infeksiyasına yoluxduqda təkrarlana bilər.



## Göyöskürək necə yayılır?

- Göyöskürək hava-damcı yolu ilə öskürdükdə və ya asqırdıqda yayılır.
- Göyöskürəyə qarşı peyvənd olmayan hər kəs xəstə ilə təmasda olduğu təqdirdə xəstələnir. Xəstəliyə yoluxmuş şəxs ilkin soyuqdəymə əlamətlərinin müşahidə olunduğu gündən öskürəyin başladığı sonrakı 2 həftə ərzində infeksiyanı yaya bilər.
- Bəzi insanlarda əlamətlər yüngül olduğundan öskürərkən fərqində olmadan körpəsini yoluxdura bilər.

# Tetanus nədir?

Tetanus bakteriyanın ifraz etdiyi toksinlə (zəhərli maddə) törədilən, ağrılı əzələ spazmı ilə müşahidə olunan və ölümə səbəb ola bilən xəstəlikdir.

## Tetanus təhlükəlidirmi?

Bəli, xüsusilə uşaqlar üçün. Tetanusdan tam sağalma müddəti bəzən aylar çəkə bilər ki, bu da uşağın xəstəxanada uzun müddət qalmasına ehtimal yaradır.

## Tetanus hansı ağırlaşmalara səbəb ola bilər?

- ✓ **Qırtlaq spazmı**
- ✓ **Sümüklərin sınması**
- ✓ **Ağciyər trombozu** (qan damarlarının trombla tutulması)
- ✓ **Pnevmoniya** (ciddi ağciyər xəstəliyi)
- ✓ **Nəfəsalmada çətinlik** (xəstəlik 2-10 haldan birində ölümlə nəticələnir)

**Tetanusa yoluxan hər 5 şəxsdən birində xəstəlik ölümlə nəticələnir.**

## Tetanusun əlamətləri hansılardır?

- ✓ **Çənə spazmı və bütün bədən əzələlərinin ağrılı spazmı**
- ✓ **Qəfil, qeyri-iradi baş verən ağrılı əzələ yığılması və ya spazmı** (ən çox mədə nahiyəsində)
- ✓ **Udqunma problemi**
- ✓ **Qıcolmalar**
- ✓ **Baş ağrısı**
- ✓ **Qızdırma və tərləmə**
- ✓ **Qan təzyiqi və ürək ritminin pozulmaları.**



## Tetanus necə yayılır?

- Tetanus xəstəliyi digər peyvəndlə qarşısı alına bilən xəstəliklərdən fərqli olaraq, insandan insana keçmir.
- Tetanus bakteriyaları əsasən torpaqda, tozda və peyində olur və insanın zədələnmiş dərisi ilə (kəsiklər, yaralar, yanıqlar, donma, heyvan dişləməsi) təmasda olduqda ötürülür.

# ÖVLADINIZI POLİOMİELİTDƏN QORUYUN!

Övladınızın poliomielitdən effektiv müdafiəsi üçün **OPV və İPV** peyvəndi vurdurmaq tövsiyə olunur. İPV peyvəndi Heksavaksinin tərkibinə daxildir.

| 1-ci doza | 2-ci doza | 3-cü doza | 4-cü doza | 5-ci doza |
|---|---|---|---|---|
| 2 aylığında **Heksavaksin** | 3 aylığında **Heksavaksin** | 4 aylığında **Heksavaksin** | 6 aylığında **OPV** | 18 aylığında **OPV** |

# Poliomielit nədir?

Poliomielit eyniadlı virus tərəfindən törədilən, iflic yaradan, çox təhlükəli, yoluxucu xəstəlikdir.

## Poliomielit təhlükəlidirmi?

Bəli, xüsusilə 5 yaşından kiçik uşaqlar üçün. Xəstəlikdən tam sağalan uşaqlarda 15-40 ildən sonra belə əzələ ağrısı, əzələ zəifliyi və iflic müşahidə oluna bilər.

## Poliomielit hansı ağırlaşmalara səbəb ola bilər?

- ✓ Ömürlük iflic
- ✓ Ölümcül iflic

**Hər 100 uşaqdan 2-10 nəfərində** poliomielit nəticəsində baş vermiş iflic nəfəsalmada iştirak edən əzələlərin zəifləməsinə görə ölümlə nəticələnir.

## Poliomielitin əlamətləri hansılardır?

- ✓ Poliovirusa yoluxan insanların əksəriyyətində heç bir əlamət olmur. Bəzi insanlarda (təxminən 100 nəfərdən 25-də) qripə bənzər əlamətlər müşahidə olunur. Bu əlamətlər adətən 2-5 gün davam edir.

- ✓ Təxminən 200 nəfərdən birində qollarda, ayaqlarda və ya ətraflarda zəiflik və ya iflic olur ki, bu da ömür boyu davam edə bilər.




## Poliomielit necə yayılır?

- Poliovirus hava-damcı yolu ilə asqırma və öskürmə zamanı yayılır. Eyni zamanda, xəstələnmiş şəxsin nəcisi ilə çirklənmiş əşyalara toxunduqda poliomielitə yoluxmaq mümkündür.
- Xəstəliyə yoluxmuş şəxs hər hansı əlamət daşımadan və ya əlamətlərin ortaya çıxmasından dərhal öncə və sonrakı 2 həftə ərzində virusu başqalarına yaya bilər.
- Virus bir neçə həftə ərzində yoluxmuş şəxsin nəcisində yaşaya bilər. O yuyulmamış əllərlə qida və əşyalara toxunduqda onları çirkləndirə bilər.

# ÖVLADINIZI HEPATİT B-dən QORUYUN!

Hepatit B peyvəndi övladınızı ciddi qaraciyər xəstəliyindən və onun törədə biləcəyi qaraciyər xərçəngindən qoruyur. Övladınızın Hepatit B-dən effektiv müdafiəsi üçün **4 doza Hepatit B əleyhinə** peyvənd vurdurmaq tövsiyə olunur. Hepatit B əleyhinə peyvənd Heksavaksinin tərkibinə daxildir.

| 1-ci doza | 2-ci doza | 3-cü doza | 4-cü doza |
|---|---|---|---|
| **Hepatit B peyvəndi** Doğulduqdan sonra 12 saat | **Heksavaksin** 2 aylığında | **Heksavaksin** 3 aylığında | **Heksavaksin** 4 aylığında |

# Hepatit B nədir?

Hepatit B virus tərəfindən törədilən yoluxucu qaraciyər xəstəliyidir.

## Hepatit B təhlükəlidirmi?

Bəli, çox ciddi xəstəlikdir. Bəzi insanlar xəstəliyin öhdəsindən gəlir və sağalır. Bəzi insanların bədənində isə virus ömürboyu aktiv olaraq qalır. Belə insanlarda xəstəliyin əlamətləri qeydə alınmasa belə, virus tədricən qaraciyərin zədələnməsinə səbəb olur və qaraciyər xərçəngi ilə nəticələnir. Hepatit B-nin tam müalicəsi yoxdur, lakin bəzi dərmanlarla müalicə ciddi fəsadların qarşısını almağa kömək edə bilər.

## Hepatit B hansı ağırlaşmalara səbəb ola bilər?

- ✓ **Qaraciyər sirrozu** (zədələnməsi)
- ✓ **Qaraciyər xərçəngi**
- ✓ **Ölüm**

## Hepatit B-nin əlamətləri hansılardır?

**Yetkin insanlarda xəstəliyin əlamətləri aşağıdakılar ola bilər:**

- ✓ **İştahsızlıq**
- ✓ **Hərarət**
- ✓ **Yorğunluq**
- ✓ **Əzələlərdə, oynaqlarda və mədədə ağrı**
- ✓ **Ürəkbulanma, ishal və qusma**
- ✓ **Tünd rəngli sidik**

**Əlamətlər adətən insan virusa yoluxduqdan 3-4 ay sonra inkişaf edir. Körpələr və gənc uşaqlarda adətən heç bir əlamət müşahidə olunmur.**




## Hepatit B necə yayılır?

Xəstəlik yoluxmuş şəxsin qanı və digər bədən mayeləri vasitəsi ilə yayılır (şəxsdə xəstəliyin heç bir əlaməti olmasa belə).

- ✓ Doğuş zamanı (anadan körpəsinə)
- ✓ Açıq kəsiklər və ya yaralarla təmasda olarkən
- ✓ Diş fırçalarını və ya digər şəxsi əşyaları paylaşarkən
- ✓ Körpə üçün çeynənmiş yeməkdən
- ✓ Cərrahi əməliyyatlar və dişlərin müalicəsi zamanı qeyri-steril alətlərlə
- ✓ Cinsi yolla

**Hepatit B virusu əşyalar üzərində 7 gün və ya daha çox yaşaya bilər.**

# ÖVLADINIZI Hib İNFEKSİYASINDAN QORUYUN!

Hib infeksiyasından eyni adlı peyvənd qoruyur. Övladınızın bu xəstəlikdən effektiv müdafiəsi üçün **3 doza Hib peyvəndi** vurdurmaq tövsiyə olunur. Hib infeksiyasına qarşı peyvənd Heksavaksinin tərkibinə daxildir.

| 1-ci doza | 2-ci doza | 3-cü doza |
|---|---|---|
| **Heksavaksin** 2 aylığında | **Heksavaksin** 3 aylığında | **Heksavaksin** 4 aylığında |

# Hib infeksiyası nədir?

Hib – Hemofilus İnfluenze B adlandırılan bakteriya tərəfindən törədilən xəstəlikdir. Bakteriya bədənin müxtəlif orqanlarını zədələyə bilər: ən çox halda beynin və onurğa beyninin örtüyünün iltihabı (meningit) baş verir.

## Hib infeksiyası təhlükəlidirmi?

Bəli, bu çox ciddi xəstəlikdir. Hib-ə yoluxmuş uşaqların əksəriyyətinə xəstəxana şəraitində müalicə tələb olunur. Bu xəstəliyə görə risk qrupuna körpələr və 5 yaşadək uşaqlar aiddir. Bu xəstəlik uzunsürən əlilliyə və ölümə səbəb ola bilər.

## Hib infeksiyası hansı ağırlaşmalara səbəb ola bilər?

- ✓ **Udlağın şişməsi və nəfəsalmanın çətinləşməsi**
- ✓ **Oynaq iltihabı**
- ✓ **Dəri infeksiyası**
- ✓ **Beyin zədələnməsi**
- ✓ **Sümük infeksiyası**
- ✓ **Kəskin pnevmoniya** (ciddi ağciyər xəstəliyi)
- ✓ **Karlıq**
- ✓ **Ölüm**

**Hətta müalicə olunduqda belə Hib-in səbəb olduğu beynin və onurğa beyninin örtüyünün iltihabından (meningit) 20 uşaqdan biri vəfat edir. Meningitdən sağalmış uşaqlarda isə 5 uşaqdan birində beyin zədələnməsi və ya karlıq müşahidə olunur.**

## Hib infeksiyasının əlamətləri hansılardır?

Hib infeksiyasının ən çox rast gəlinən forması meningit olduğuna görə xəstədə aşağıdakı əlamətlər müşahidə olunur:

- ✓ **Yüksək qızdırma**
- ✓ **Çaşqınlıq**
- ✓ **Baş ağrısı və boyun nayihəsində gərginlik**
- ✓ **İşığa qarşı həssaslıq**
- ✓ **Zəif qida və maye qəbulu, sayıqlığın azalması, qusma** (körpələrdə)



## Hib infeksiyası necə yayılır?

- Hib infeksiyası hava-damcı yolu ilə öskürmə və ya asqırma zamanı yayılır. Sağlam insanlar nəfəs alarkən havada olan viruslu damcılar nəfəs yollarına düşüb onları yoluxdura bilər.
- Xəstəlik əlamətləri olmadığı halda belə burun boşluğunda və boğazında bakteriya olan insanlar da xəstəliyi yaya bilərlər.

# ÖVLADINIZI PNEVMOKOKDAN QORUYUN!

Övladınızın bu infeksiyadan effektiv müdafiəsi üçün **3 doza pnevmokok əleyhinə (Pk) peyvənd** vurdurmaq tövsiyə olunur.

| 1-ci doza | 2-ci doza | 3-cü doza |
|---|---|---|
| 2 aylığında | 4 aylığında | 6 aylığında |

Pnevmokok bakteriyaları bir çox antibiotiklərə qarşı dözümlü olduğuna görə müalicəsi çətinləşmişdir. Belə halda uşaqların peyvənd olunması xüsusi əhəmiyyət kəsb edir.

# Pnevmokok infeksiyası nədir?

Pnevmokok infeksiyası eyniadlı bakteriyalar tərəfindən törədilən, qulaq, ağciyər, qan və beyin infeksiyalarına səbəb olan çox təhlükəli infeksiyadır.

## Pnevmokok infeksiyası təhlükəlidirmi?

Bəli, xüsusilə 2 yaşa qədər uşaqlarda pnevmokok infeksiyası ciddi ağırlaşmalara, ömürlük əlilliyə (karlıq, beyin zədələnməsi və s.) və ölümə səbəb ola bilər.

## Pnevmokok infeksiyası hansı ağırlaşmalara səbəb ola bilər?

- ✓ Karlıq
- ✓ Beyin zədələnməsi
- ✓ Qol və ya ayaqda ömürlük iflic
- ✓ Qulaq, ağciyər, qan və beyin infeksiyaları
- ✓ Ölüm

**Pnevmokok infeksiyasına yoluxmuş 5 yaşadək hər 12 uşaqdan biri vəfat edir.**

## Pnevmokok infeksiyası necə yayılır?

Pnevmokok infeksiyası hava-damcı yolu ilə öskürmə və ya asqırma zamanı yayılır. Bəzi uşaqlarda infeksiyanın əlamətləri aydın müşahidə olunmasa belə, onların burun boşluğu və boğazlarında bakteriya ola bilər və onlar infeksiyanı yaya bilər.



## Pnevmokok infeksiyasının əlamətləri hansılardır?

Pnevmokok infeksiyasının bir çox növü var. İnfeksiyanın əlamətləri təsir göstərdiyi bədən üzvlərindən asılı olaraq aşağıdakıları əhatə edir:

**Ağciyər infeksiyasına səbəb olan pnevmokok infeksiyasının əlamətləri**

- Qızdırma və ya titrətmə
- Öskürək
- Nəfəsalmanın tezləşməsi və çətinləşməsi
- Sinədə ağrılar

**Beynin və onurğa beyninin örtüyünün iltihabına** (meningitə) **səbəb olan pnevmokok infeksiyasının əlamətləri**

- Boyun əzələlərinin gərginliyi və baş ağrısı
- Yüksək qızdırma
- İşığa qarşı həssaslıq
- Sayıqlığın azalması
- Körpələrdə iştahsızlıq, qusma

**Orta qulaq infeksiyasına səbəb olan pnevmokok infeksiyasının əlamətləri**

- Qulaq ağrıları
- Qızdırma və ya yuxululuq

**Qan infekiyasına səbəb olan pnevmokok infeksiyasının əlamətləri**

- Qızdırma
- Titrətmə
- Sayıqlığın azalması

# ÖVLADINIZI VƏRƏMDƏN QORUYUN!

Azərbaycanda vərəm geniş yayıldığına görə körpələrdə **BCG peyvəndi** ilə immunlaşdırma aparılır. BCG peyvəndi uşaq doğulduqdan sonra 12 saat ərzində doğum evində vurulur. Uşağa doğulduqdan sonrakı 12 saat ərzində vərəm əleyhinə BCG peyvəndi ilə vaksinasiyanın aparılması hər hansı səbəbdən mümkün olmadıqda, istisna hallarda yenidoğulmuşa doğum evini tərk edənə qədər peyvəndin vurulması vacibdir.

# Vərəm nədir?

Vərəm bakteriyalar tərəfindən törədilən və ağciyərlərin zədələnməsinə səbəb olan xəstəlikdir. Vərəm mikrobları bədənin digər orqanlarını da zədələyə bilər: məsələn böyrəkləri, onurğa beynini və ya beyni.

## Vərəm təhlükəlidirmi?

Vərəmin qarşısını almaq və müalicə etmək mümkündür. Buna baxmayaraq, vərəm dünyada ölümə səbəb olan əsas xəstəliklərdən biri olaraq qalır.

Hər kəs vərəmə yoluxa bilər. 3 yaşadək uşaqlar, vərəm xəstələri ilə eyni yerdə yaşayanlar, xroniki xəstəlikləri olanlar, siqaret çəkənlər, immun sistemi zəif olan insanlar infeksiyaya daha çox həssasdırlar.

## Vərəm hansı ağırlaşmalara səbəb ola bilər?

- ✓ **Oynaqların zədələnməsi**
- ✓ **Ağciyərlərin zədələnməsi**
- ✓ **Sümüklər, onurğa beyni, beyin və limfa vəzilərinin infeksiyası və zədələnməsi**
- ✓ **Qaraciyər və böyrəklərin zədələnməsi**
- ✓ **Ürək toxumalarının zədələnməsi**

## Vərəmin əlamətləri hansılardır?

Vərəm xəstəliyinin əlamətləri vərəm mikroblarının hansı orqanı zədələməsindən asılıdır. Ən çox rast gəlinən vərəmin ağciyər formasıdır və əlamətləri aşağıdakılardır:

- ✓ **Öskürək** (3 həftədən çox davam edən)
- ✓ **Bəlğəmli öskürək, tərkibində qanla**
- ✓ **Sinə ağrısı**
- ✓ **Qızdırma**
- ✓ **Gecə tərləmələri və üşütmə**
- ✓ **İştahsızlıq, zəiflik və ya yorğunluq**
- ✓ **Çəkinin azalması**



## Vərəm necə yayılır?

- Vərəm hava-damcı yolu ilə asqırma, öskürmə və danışıq zamanı yayılır.
- Nəfəs aldıqda havada olan vərəm mikrobları insanın ağciyərlərinə düşür, orada inkişaf edir və xəstəlik törədir. Buradan vərəm mikrobları qanla digər orqanlara da ötürülə (böyrəklər, onurğa beyni, beyin) və onları zədələyə bilər.

# Peyvəndlərlə bağlı tez-tez verilən suallar

## Peyvəndlərin yan təsirləri hansılardır və onlar təhlükəlidirmi?

Peyvəndlər hər hansı dərman preparatı kimi bəzi yan təsirlərin yaranmasına səbəb ola bilər.

Bu normal haldır və övladınız üçün zərərli və təhlükəli deyil. Peyvənd vurulduqdan sonra ən çox rast gəlinən yan təsirlərə inyeksiya yerində ağrı və ya yüngül qızdırma daxildir. Bu əlamətlər adətən bir neçə gün davam edir və sadə müalicə ilə keçir. Məsələn, əgər uşaq peyvənd vurulan qolunda narahatlıq hiss edirsə, inyeksiya yerinə təmiz, sərin, nəm dəsmal yerləşdirin və qolu ehmalca hərəkət etdirin. Övladınızın qızdırması qalxarsa, ona bol maye verin və yüngül geyindirin.

Ciddi reaksiyalar çox nadir hallarda müşahidə olunur. Buna rəğmən, övladınızda sizi narahat edən hər hansı əlamət aşkarlasanız, həkiminizə xəbər verin.

## Kombinə edilmiş peyvəndlər nədir?

Kombinə edilmiş peyvəndlər bir inyeksiya vasitəsilə uşağı bir neçə infeksiyadan qoruyur. Bu həm uşaq üçün ağrılı olan inyeksiyaların sayını azaldır, həm də övladınızla tibb müəssisəsinə dəfələrlə gəlməyinizə ehtiyac yaratmayaraq, vaxtınıza və pulunuza qənaət etmiş olur.

Kombinə edilmiş peyvəndlərə QPM (qızılca, parotit, məxmərək əleyhinə), GDT (göyöskürək, difteriya və tetanus əleyhinə) və beşvalentli (göyöskürək, difteriya, tetanus, Hib və Hepatit B əleyhinə) peyvəndlər daxildir.




## Uşaqların peyvənd olunmasına niyə bu qədər erkən yaşda başlanılır?

Azyaşlı uşaqlar bəzi təhlükəli xəstəliklərə qarşı həssas olduqları üçün onların xəstəliyi ağır formada keçirmək və xəstəxana şəraitində müalicə olunmaq, həmçinin xəstəliyin ölümlə nəticələnmə riski daha yüksəkdir. Belə ki, peyvəndin vurulmasında gecikmə uşağın həssas olduğu dövrdə onu müdafiədən məhrum edir. Məsələn, Hib və ya pnevmokok kimi xəstəliklərdən demək olar ki, həmişə 2 yaşadək uşaqlar əziyyət çəkir. Hepatit B, göyöskürək və bəzi digər peyvəndlə qarşısı alına bilən xəstəliklər isə azyaşlı uşaqlarda daha ciddi keçir. Lakin uşaqlara peyvənd vurulduğu təqdirdə, onların immun sistemi güclənmiş və erkən yaşlarından etibarən həmin xəstəliklərə qarşı qorunmuş olur. Məhz buna görə də uşaqları doğulduğu gündən etibarən peyvənd cədvəlinə uyğun peyvənd etdirmək lazımdır.

| Peyvəndlər | Qoruduğu xəstəliklər | Peyvəndin vurulma vaxtı | Peyvəndin vurulduğu tarix gün/ay/il | Peyvəndin Seriya Nömrəsi |
|---|---|---|---|---|
| HepB | Hepatit B | ilk 12 saat ərzində | | |
| BSJ | Vərəm | ilk 12 saat ərzində | | |
| GDT Hib HepB İPV (HEKSAVAKSİN) | Göyüskürək, difteriya, tetanus, B tipli hemofil infeksiyası, Hepatit B və Poliomielit | 2 aylığında | | |
| | | 3 aylığında | | |
| | | 4 aylığında | | |
| Pk | Pnevmokok infeksiyası | 2 aylığında | | |
| | | 4 aylığında | | |
| | | 6 aylığında | | |
| OPV | Poliomielit | 6 aylığında | | |
| | | 18 aylığında | | |
| QPM | Qızılca, epidemik parotit və məxmərək | 12 aylığında | | |
| | | 6 yaşında | | |
| GDT | Göyöskürək, difteriya və tetanus | 18 aylığında | | |
| DT | Difteriya və tetanus | 6 yaşında | | |

# Qeyd:

Peyvənddən imtina və ya gecikdirmə səbəbi:



## ÖVLADIMIZI PEYVƏND ETDİRƏK, GƏLƏCƏYİMİZİ QORUYAQ!

**#PeyvəndinVaxtınıGecikdirmə**
**#HərDozaVacibdir**

Broşür Avropa İttifaqının maliyyə dəstəyi ilə ÜST-nin həyata keçirdiyi "Vaksinasiyaya Dəstək" layihəsi çərçivəsində çap olunub. Buradakı məlumatlar Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir və məzmuna görə ÜST-nin Ölkə Ofisi məsuliyyət daşıyır.